“Dövlət Mülki Aviasiya Agentliyi”
publik hüquqi şəxsinin 2025-ci il 31 oktyabr tarixli 3-27-102/3-02-22/2025 nömrəli əmri ilə təsdiq edilmişdir

AVİASİYA PERSONALINA ŞƏHADƏTNAMƏ, İXTİSAS QEYDİ, VƏSİQƏ, SERTİFİKAT VƏ YA DİGƏR ƏLAQƏLİ SƏNƏDLƏRİN VERİLMƏSİ VƏ DİGƏR DÖVLƏTDƏ VERİLMİŞ ANALOJİ SƏNƏDLƏRİN TANINMASI İLƏ BAĞLI MÜRACİƏTLƏRƏ BAXILMASINA DAİR TƏLİMAT

“Dövlət Mülki Aviasiya Agentliyi”

publik hüquqi şəxs

Sənəd № M-PEL-002

Nəşr tarixi: 31 OKTYABR 2025

Nəşr № 01

Bakı

AZƏRBAYCAN RESPUBLİKASI
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ
PUBLİK HÜQUQİ ŞƏXS

ƏMR

№ 3-27-102/3-02-22/2025

Bakı şəhəri «31» oktyabr 2025 il

"Aviasiya personalına şəhadətnamə, ixtisas qeydi, vəsiqə, sertifikat və ya digər əlaqəli sənədlərin verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması ilə bağlı müraciətlərə baxılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin 2025-ci il 29 avqust tarixli 3-27/3-2-81/2025/6 əmri ilə təsdiq edilmiş "Aviasiya personalına şəhadətnamələrin, ixtisas qeydlərinin, vəsiqələrin, sertifikatların və ya digər əlaqəli sənədlərin verilməsi, yenidən təsdiq edilməsi və ya müddətinin uzadılması, eləcə də onlarda hər hansı dəyişiklik edilməsi və üzv dövlətdə verilmiş analoji sənədlərin Azərbaycan Respublikasında təsdiq edilməsi və ya konvertasiyası prosedurunun təkmilləşdirilməsi barədə Tədbirlər Planı"nın 1.2-ci və 3.1-ci bəndləri ilə müəyyən edilmiş tədbirlərin icrasının aidiyyəti üzrə təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"nin 3.1.9-cu və 4.10.6-cı yarımbəndlərinə müvafiq olaraq

əmr edirəm:

1. "Aviasiya personalına şəhadətnamə, ixtisas qeydi, vəsiqə, sertifikat və ya digər əlaqəli sənədlərin verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması ilə bağlı müraciətlərə baxılmasına dair Təlimat" (bundan sonra – Təlimat) təsdiq edilsin.
2. Təlimat "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsinin rəsmi internet informasiya ehtiyatında yerləşdirilsin.
3. İnzibati idarəetmə departamenti Təlimatın bütün şəxsi heyətə və mülki aviasiya subyektlərinə çatdırılmasını təmin etsin.
4. Əmrin icrasına nəzarəti özümdə saxlayıram.

İdarə Heyəti sədrinin müavini,
İdarə Heyətinin sədri vəzifəsini
müvəqqəti icra edən **Bəhruz Məlikov**

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ

0.1 MÜNDƏRİCAT

0 SƏNƏDƏ NƏZARƏT və İDARƏEDİLMƏ 1

0.1 Mündəricat 1

0.2 Səhifələrin Siyahısı 3

0.3 Sənədin Yayılma Siyahısı 5

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı 6

0.5 Sənədə Nəzarət və İdarəedilmə 7

Təlimat 1

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.2 SƏHIFƏLƏRIN SIYAHISI

	Hissə 0	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	31.OKT.2025	00
2	31.OKT.2025	00
3	31.OKT.2025	00
4	31.OKT.2025	00
5	31.OKT.2025	00
6	31.OKT.2025	00
7	31.OKT.2025	00
8	31.OKT.2025	00
	Hissə 1	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	31.OKT.2025	00
2	31.OKT.2025	00
3	31.OKT.2025	00
4	31.OKT.2025	00

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.3 SƏNƏDIN YAYILMA SIYAHISI

Nüsxə №	Nüsxənin tipi	Şöbə	Yerləşdirilib:
Master	**(S)**	Quality Control	DMAA-nın kitabxanası/ Intranet
1	**(S)**	Quality Control	Q-Pulse

(S) Soft Copy - (Eelektron nüsxəsi)

(H) Hard Copy – (Çap olunmuş nüsxəsi)

Qeyd: Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.

0.4 DÜZƏLIŞ VƏ DƏYIŞIKLIKLƏRIN QEYDIYYATI

Nəşr/Dəyişiklik №:	Nəşr/Dəyişikliyin tarixi:	Qüvvəyə minib:	Səbəb
Nəşr 01	31.10.2025	31.10.2025	

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı kolontitulunda göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmi şdəyişiklik. Əsas dəyişilkilər (nömrə və tarix) haqqında məlumat Rəhbərlik sənədin actual məlumatlar siyahısında, müvafiq səhifənin başlığında və mətnin özündə göstərilmişdir.

0.5 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDILMƏ

Bu sənəd A4 ölçüsü kağızvərəqələrdə çapedilmişdir. Elektron (PDF) fayllar isə icazə verilməmiş dəyişikliklərindən qorunmaq məqsədi ilə parolla boklanılıb.

Bu sənəd müntəzəm olaraq yenidən baxılır və dəyişdirilir. Bütün müvafiq işçi heyəti bütün düzəlişləri ilə tanış olmalıdır.

Bu sənəd "Sənədlərə nəzarət" prosedurun tələblərinə uyğun olaraq dəyişdiriləcək və yenidən baxılacaqdır.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

TƏLİMAT

1. Ümumi müddəalar

1.1. Aviasiya personalına şəhadətnamə, ixtisas qeydi, vəsiqə, sertifikat və ya digər əlaqəli sənədlərin verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması ilə bağlı müraciətlərə baxılması qaydası bu Təlimata əsasən həyata keçirilir. Bu Təlimatın müddəaları həmçinin müəyyən edilmiş sənədlərin yenidən təsdiq edilməsi və ya müddətinin uzadılması, eləcə də onlarda hər hansı dəyişiklik edilməsi ilə bağlı müraciətlərə (bundan sonra – müraciət) də şamil olunur.

1.2. Bu Təlimat "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, "Beynəlxalq Mülki Aviasiya haqqında" 1944-cü il 7 dekabr tarixli Konvensiya (bundan sonra – Konvensiya), habelə Konvensiyaya 1 nömrəli Əlavə – "Aviasiya personalının sertifikatlaşdırılması", Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"nin 3.1.26-cı yarımbəndi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 fevral tarixli 27 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uçuş və kabinə heyətinə təlim keçən təşkilatlara, uçuş və kabinə heyətinin bilik və bacarıqlarını yoxlayan təlimçilərə sertifikatın verilməsi Qaydası", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 11 aprel tarixli 107 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aviasiya personalına şəhadətnamələrin, vəsiqələrin və ya sertifikatların verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması Qaydaları", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 23 aprel tarixli 132 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mülki pilotsuz uçuş aparatlarının istismarı, qeydiyyata alınması və kateqoriyalara bölünməsi Qaydaları"na əsasən hazırlanmışdır.

1.3. Bu Təlimatla tənzimlənməyən məsələlər Təlimatın 1.2-ci bəndi ilə müəyyən edilmiş sənədlərə uyğun olaraq həyata keçirilir.

1.4. Bu Təlimata uyğun olaraq müraciətin qəbulu və icraatın aparılması "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsi (bundan sonra – DMAA) tərəfindən həyata keçirilir.

1.5. Ərizəçi (və ya səlahiyyətli nümayəndə) tərəfindən DMAA-ya yazılı (kağız daşıyıcıda və ya elektron formada) qaydada müraciət edilir. Elektron formada edilən müraciət "Q-pulse" proqram təminatı vasitəsilə və ya DMAA-nın Şəhadətnamələrin rəsmiləşdirilməsi (PEL) departamentinin (bundan sonra – PEL departamenti) "plg@caa.gov.az" elektron poçt ünvanına göndərilir.

1.6. Bu Təlimatın 1.5-ci bəndində müəyyən edilmiş elektron formada göndərilmiş müraciət PEL departamentinin əlaqəli şəxsi tərəfindən icraata qəbul edilir, habelə elektron sənəd dövriyyəsinə yüklənilməsi üçün İnzibati idarəetmə departamentinə göndərilir. Digər formada (kağız daşıyıcıda və s.) daxil olan müraciət isə İnzibati idarəetmə departamenti tərəfindən elektron sənəd dövriyyəsinə yüklənilməklə icra üçün PEL departamentinə yönləndirilir.

1.7. Hava gəmisinin istismarçıları vasitəsilə mütəmadi daxil olan müraciətlə əlaqədar koordinasiyanın düzgün təşkili məqsədilə ərizəçi tərəfindən vahid elektron poçt ünvanları və ərizəçinin əlaqələndirici şəxsləri müəyyən edilir.

1.8. Daxil olan müraciət üzrə çatışmazlıq aşkar edildiyi hallarda əlavə sənəd və məlumat tələb edildikdə bu Təlimatın 1.5-ci bəndində müəyyən edilmiş "Q-pulse" proqram təminatı və ya PEL departamentinin müvafiq elektron poçt ünvanı vasitəsilə yazışmalar aparılır.

2. Müraciətə baxılmasına dair ümumi tələblər

2.1. Aşağıdakı sənədlərin verilməsi ilə bağlı müraciət DMAA tərəfindən icraata qəbul edilir:

2.1.1 həvəskar pilot şəhadətnaməsi (PPL A/H);

2.1.2 kommersiya pilotu şəhadətnaməsi (CPL A/H);

2.1.3 nəqliyyat pilotu şəhadətnaməsi (ATPL A/H);

2.1.4 çoxheyətli pilot şəhadətnaməsi (MPL);

2.1.5 hava şarı pilotu şəhadətnaməsi (BPL);

2.1.6 naviqator, bort mühəndisi, bort radiooperatoru (bort radist) şəhadətnamələri;

2.1.7 havada hərəkəti idarəetmə dispetçeri şəhadətnaməsi (ATCL);

2.1.8 havada hərəkəti idarəetmə tələbə-dispetçeri şəhadətnaməsi;

2.1.9 mülki hava gəmisinə texniki xidmət üzrə şəhadətnamə (AML);

2.1.10 instrumental ixtisas qeydi;

2.1.11 kateqoriya, sinif və ya növ ixtisas qeydi (“class” və ya “type rating”);

2.1.12 təlimçi sertifikatı;

2.1.13 imtahançı sertifikatı;

2.1.14 kabinə heyəti şəhadətnaməsi;

2.1.15 mülki pilotsuz uçuş aparatları üçün pilot (operator) şəhadətnaməsi;

2.1.16 digər dövlətdə verilmiş şəhadətnamə, ixtisas qeydi, vəsiqə, sertifikat və ya digər əlaqəli sənədlərin tanınması (təsdiq edilməsi) və ya konvertasiyası (“validation” və ya “conversion”);

2.1.17 imtiyazların doğrulanması (“verification”);

2.1.18 məhdudiyyət qeydinin ləğvi;

2.1.19 əlavə qeydlərin aparılması;

2.1.20 dublikat.

2.2 Ərizəçi müraciətini DMAA-nın rəsmi internet informasiya ehtiyatında yerləşdirilmiş ərizə formalarına və həmin formalarda müəyyən edilmiş məlumat və sənədlərə uyğun təqdim etməlidir.

3. Müraciətə baxılmasının mərhələləri

3.1. Müraciətə baxılması aşağıdakı mərhələləri əhatə edir:

3.1.1. müraciət və tələb olunan sənədlərin qəbulu və ilkin yoxlanılması;

3.1.2. ilkin yoxlanılma zamanı çatışmazlıq yoxdursa, icraata qəbul edilməsi, çatışmazlıq varsa, ərizəçiyə çatışmazlığın aradan qaldırılması ilə bağlı məlumatlandırmanın edilməsi;

3.1.3. icraata qəbul edilmiş müraciətin (əlavə qeydlər və dublikatlarla bağlı müraciət istisna olmaqla) qiymətləndirilməsi üçün Şəhadətnamələrin verilməsi üzrə işçi qrupa (bundan sonra – PEL Qrup) yönləndirilməsi;

3.1.4. PEL Qrupun yekun əsaslandırılmış rəyinə uyğun olaraq PEL departamenti tərəfindən sənədlərin verilməsi və ya verilməsindən imtina.

4. Müraciətə baxılmasına dair xüsusi tələblər

4.1 Bu Təlimatın 1.5-ci bəndinə uyğun olaraq daxil olmuş müraciət PEL departamentində qəbul edilir və ilkin yoxlamadan keçir. Müraciət və ona əlavə olunmuş sənədlər 3 (üç) gün müddətində yoxlanılır, çatışmazlıqlar aşkar edildikdə, PEL departamenti tərəfindən ərizəçiyə çatışmazlıq aşkar edildiyi andan bu Təlimatın 1.5-ci bəndində müəyyən edilmiş elektron formada məlumat verilir. Ərizəçi 15 (on beş) gün müddətində çatışmazlıqları aradan qaldıraraq tələb olunan sənədləri və ya məlumatları PEL departamentinə təqdim etməlidir.

4.2. Digər dövlət tərəfindən verilmiş analoji sənədlərin tanınması (təsdiq edilməsi), konvertasiyası, o cümlədən şəhadətnamə imtiyazlarının doğrulanmasına dair müraciət bu Təlimatın 4.1-ci bəndində nəzərdə tutulan çatışmazlıqlar aşkar edilmədikdə, DMAA tərəfindən 2 (iki) iş günü ərzində xarici dövlətlərin səlahiyyətli aviasiya qurumlarına sorğu almaq məqsədilə göndərilir.

4.3. Tələb olunan əlavə sənədlərin və ya məlumatların təqdim olunması ilə bağlı bu Təlimatın 4.1-ci və 4.2-ci bəndləri ilə müəyyən olunmuş müddətlər ərzində ərizəyə baxılmasına dair müddətin axımı dayandırılır. Sözügedən məlumatların və sənədlərin təqdim olunduğu andan müddət axımı bərpa olunur. Müddət axımının dayandırıldığı və ya yenidən bərpa olunduğu müddət ərzində ərizəçinin bu Təlimatın 1.2-ci bəndi ilə müəyyən olunmuş sənədlərin tələblərinə uyğunluğunu təsdiq edən sənədlərinin (nəzəri bilik imtahanının nəticəsi, tibbi sertifikatının etibarlılıq müddəti və s.əgər varsa) etibarlılıq müddəti başa çatdıqda ərizəçi eyni qaydada yenidən müraciət etməlidir.

4.4. Ərizəçi bu Təlimatın 4.1-ci bəndində müəyyən olunmuş müddət ərzində çatışmazlıqları aradan qaldırmadıqda müraciətin baxılmamış saxlanılması barədə qərar PEL departamenti tərəfindən rəsmiləşdirilir.

4.5. Müraciət üzrə çatışmazlıq olmadığı halda qiymətləndirilməsi üçün PEL departamenti tərəfindən PEL Qrupa göndərilir. PEL Qrupa daxil olmuş müraciətə uçuş əməliyyatlarına nəzarət (OPS), hava gəmilərinin uçuşa yararlılığına nəzarət (AIR), aeronaviqasiya standartlarına və hava hərəkətinin idarə edilməsinə nəzarət (ANS) və PEL departamentlərinin nümayəndələrindən formalaşmış tərkib tərəfindən ilkin sənəd verilməsinə dair müraciətlərə münasibətdə 5 (beş) iş günü, təkrar sənəd verilməsinə dair müraciətlərə münasibətdə isə 3 (üç) iş günü (hava gəmilərinin uçuşa yararlılığına nəzarət (AIR) departamenti ilə əlaqəli olan ilkin sənəd verilməsinə dair müraciətlərə münasibətdə 10 (on) iş günü, təkrar sənəd verilməsinə dair müraciətlərə münasibətdə isə 5 (beş) iş günü) ərzində baxılır və təsdiqlənmiş yekun rəy PEL departamentinə təqdim edilir və bu barədə ərizəçi bu Təlimatın 4.6-cı bəndinə uyğun məlumatlandırılır.

4.6. PEL Qrupun yekun rəyinə uyğun 3 (üç) iş günü ərzində sənədlərin verilməsi və ya verilməsindən imtina barədə DMAA-nın rəhbərliyi tərəfindən qəbul edilmiş qərar rəsmiləşdirilərək ərizəçiyə (və ya səlahiyyətli nümayəndəsinə) bu Təlimatın 1.5-ci bəndində müəyyən olunan elektron formada təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB